

# Zəfər parkı tarixi qələbəmizin rəmzidir

**"Bu gün Zəfər Günündə şəhərimizin ən gözəl yerlərindən birində Zəfər parkı açılıb. Gözəl Zəfər tağı, Zəfər abidəsi, ərazisi 10 hektara yaxın olan gözəl park, onun aşağısında Zəfər muzeyi artıq inşa edilib, onun tərtibatı gedir. Gələcəkdə Zəfər muzeyi də olacaq. Bu gözəl yerdə şəhərimizin, yenə də deyirəm, ən gözəl yerlərindən birində bu gün bizim parlaq Zəfərimizi əks etdirən yeni simvolumuz artıq yaradılıb. Şəhərə gedən iki yolun kəsişməsində Zəfər tağı yerləşir. Həm müasir üslubda inşa edilib, həm çox əzəmətlidir. Hündürlüyü də 44 metrdir, sütunlarının da sayı 44-dür. Bu parkda və indi tərtib olunan muzeydə bir çox önəmli rəmzlər var. Bu rəmzlər bizimlə əbədi olacaq. Bu Qələbə bizimlə əbədi olacaq. Azərbaycan xalqı bundan sonra qalib xalq, Azərbaycan dövləti müzəffər dövlət kimi yaşayacaqdır". Bu sözləri Prezident cənab İlham Əliyev noyabrın 8-də Zəfər parkının açılışında xalqa müraciətində deyib.**

Zəfər parkı Prezident İlham Əliyevin 2020-ci il dekabrın 3-də imzaladığı sərəncamla Vətən müharibəsində göstərilən misilsiz qəhrəmanlığın və qazanılan möhtəşəm Zəfərin əbədi olaraq yaddaşlarda qalması və ictimaiyyətə nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə salınıb. Dövlətimizin başçısı bildirib ki, Azərbaycan xalqı və dövləti artıq qalib statusunda yaşayır və bu status gələcək uğurlarımızın təməlidir.

Bakının ən gözəl ərazilərindən birində yaradılmış bu möhtəşəm park 30 ildən sonra qazandığımız ərazi bütövlüyünün və Zəfər tariximizin daha bir abidəsi kimi qiymətlidir. Bu park Azərbaycan xalqının 44 günlük Vətən müharibəsindəki qələbəsini simvolizə edir. 2020-ci ilin 8 noyabrı həm də Şuşanın azad edilməsi ilə bağlı tarixi bir gündür və bu səbəbdən Zəfər parkının açılışı həmin tarixə təsadüf edib.

Qələbəmizin simvolu olan Zəfər parkı bu nailiyyətin əbədiyaşarlığını təsdiqləyir. 44 metrlik tağ və hər biri qələbənin bir gününü təmsil edən 44 sütun yalnız memarlıq baxımından deyil, həm də milli yaddaşımızı gələcək nəsillərə çatdıran bir irsdir. Vətən müharibəsi zamanı Prezident İlham Əliyevin düşünülmüş strategiyası və ordumuzun qətiyyəti sayəsində ölkəmizin suverenliyi və ərazi bütövlüyü bərpa edildi. Dövlət başçımızın "Qarabağ Azərbaycandır!" sözləri, dövlət-xalq birliyi böyük Zəfərin təminatı oldu. İndi Azərbaycan qalib dövlət olaraq regionda sülhün və təhlükəsizliyin qarantıdır. Torpaqlarımız işğaldan azad edildikdən sonra Qarabağda həyata keçirilən bərpa və quruculuq işləri, o cümlədən keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıtması tarixi ədalətin bərpasıdır.

Zəfər parkının açılışı ilə Azərbaycan xalqı bir daha dünyaya öz gücünü, iradəsini nümayiş etdirdi. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrinin göstərdiyi misilsiz qəhrəmanlıq yalnız torpaqlarımızın işğaldan azad edilməsi ilə yekunlaşmadı, eyni zamanda ölkəmizin beynəlxalq arenada nüfuzunu daha da möhkəmləndirdi.

Vətən müharibəsi bizim şanlı tariximiz, parlaq Qələbəmizdir. Həm Birinci Qarabağ, həm Vətən müharibəsində, eləcə də antiterror tədbirlərində şəhidlərimizin qanını döyüş meydanında aldıq, öz ərazi bütövlüyümüzü, suverenliyimizi bərpa etdik.

Azərbaycanın tarixi Zəfəri, ölkəmizin inkişafı regionda davamlı sülh üçün möhkəm əsaslar yaradır. Zəfər Günündə açılışı baş tutan Zəfər parkı qələbəmizin rəmzidir. Bu park yalnız şəhərimizin memarlıq üslubuna yeni nəfəs gətirmir, həm də vətənpərvərlik ruhumuzu əks etdirən simvolik məkandır.

Xalqımızın qürur yerinə çevrilən Zəfər parkı ölkəmizin tarixində qəhrəmanlıq dastanının simvolik ifadəsidir. O, təkcə bir tarixi hadisəni deyil, həm də Azərbaycanın gələcəyə olan inamını və torpaqlarını qorumaq əzmini ifadə edir. Ziyarətçilər buraya gələrək həm keçmişə hörmətlərini ifadə edir, həm də gələcək nəsillərə milli ruhu aşılamaq missiyasına qoşulurlar. Bu gün biz qalib xalq, Zəfər sevincini yaşayan millətik. Zəfər parkının yaradılması bu qələbəmizin tarixiləşdirilməsi qədər qiymətlidir.

Zəfər parkındayıq. Bura gələn ağsulu **İkram Salahovun** söhbəti çox maraqlıdır: "Nəvəm ilə Hərbi Qənimətlər Parkından gəlirik. Bundan sonra ən çox üz tutduğum ünvanlardan biri də Zəfər parkı olacaq. Ümumiyyətlə, 8 nəvəmin hamısı ilə Şəhidlər xiyabanı, Hərbi Qənimətlər Parkını gəzmişik. Onlara şəhidlərimiz, qəhrəmanlarımız haqqında ətraflı danışmışam. Bizdən sonrakı nəsillər də bu ənənəni davam etdirməlidirlər. Çünki biz şəhidlərimizə borcluyuq. Bu Vətən məhz onların sayəsində bütövdür".




"İki nəvəm Vətən müharibəsi iştirakçısıdır. Bu gün onların sinəsini medallar bəzəyir", - deyən **Xalidə Hacıyeva** bildirir ki, əslən Qərbi Azərbaycandandır: 1989-cu ildə isti ocağımızdan, ata-baba yurdumuzdan didərgin düşmüşük. Torpaqlarımızın işğaldan azad olunmasını gördüm. Arzum budur ki, ömür vəfa etsə, doğulub boya-başa çatdığım torpaqlara qayıdım. İnanıram ki, bu park həmişə insanların ziyarət ünvanı olacaq".

**M.MİRZƏ,**
**"Respublika".**